# PANDEMİYA DÖVRÜNDƏ F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASININ SOSİAL ŞƏBƏKƏLƏRDƏ HƏYATA KEÇİRDİYİ FƏALİYYƏTİ

**Validə Quliyeva**

*BDU, Biblioqrafiyaşünaslıq kafedrasının magistrantı*

F.Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə M.Qorki adına kütləvi kitabxana fondunun bazası əsasında yaradılmışdır. Hazırda kitabxananın 9 şöbəsi, 5 bölməsi, 2 oxu zalı var. Kitabxananın elektron saytı 2005-ci ildən fəaliyyət göstərir. F.Köçərli adına Respublika Uşaq kitabxanası 2012-ci ildən mötəbər bir təşkilatın – Beynəlxalq Uşaq Kitabı Şurasının (İBBY) üzvüdür. F.Köçərli adına Respublika Uşaq kitabxanasında oxuculara virtual xidmət göstərməkdə əsas məqsəd uşaqların, məktəblilərin asudə vaxtlarının daha səmərəli keçirilməsinə yardımçı olmaqdır. www.clb.az saytı bölmə və yarımbölmələrdən ibarətdir. Yeni təqvim ili mədəniyyət tariximiz üçün son dərəcə mühüm əhəmiyyət kəsb edən simvolik dəyərlərlə başlandı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli Sərəncamı ilə bu il ölkəmizdə "Nizami Gəncəvi İli" elan edildi. Həmçinin, ölkə rəhbəri işğaldan azad olunmuş Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan etdi. Təbii ki, hər iki fakt həyatımızda əhəmiyyətli yer tutaraq yeni bir tarixi başlanğıca çevriləcək. İl ərzində kitabxanada "Nizami Gəncəvi ili" çərçivəsində keçirilən tədbirlər böyük mütəfəkkirin tarixi-mənəvi irsinin xüsusilə gənc nəslə aşılanmasında, tarixən mədəniyyət beşiyi olmuş Azərbaycanın mənəvi sərvətlərinin dünyaya Nizami işığında təqdim olunmasında mühüm rol oynayacaq. F.Köçərli kitabxanası pandemiya dövründə oxucularla, məktəblilərlə onlayn görüşlər, yarışlar, rubrikalar təşkil etməkdədir. Əlamətdar günlərlə bağlı elektron www.clb.az saytında virtual kitab sərgiləri, metodik vəsaitlər, biblioqrafik gostəricilər ərsəyə gətirərək saytda oxucularına təqdim edir. Buna misal olaraq "Əsrin faciəsi – Xocalı", 2 aprel Beynəlxalq Uşaq Kitabı Gününə həsr olunmuş "Hər zamanın nağılçısı – H.X.Andersen", "31 Mart qan yaddaşımızın bərpa olunduğu gün", "20 Yanvar", "Abdulla Şaiq 140", "Əzizinəm Qarabağ" adlı slaydlar saytda yerləşdirilib.

F.Köçərli adına Respublika Uşaq kitabxanası "Nizami Gəncəvi İli" çərçivəsində bir sıra yeni, uğurlu və biri-birindən maraqlı layihələr həyata keçirtməyə davam edir. Bu tədbirlərdən biri məhz "Qonağım ol" adlı yeni layihədir. Əsas məqsəd məktəblilərin dünyagörüşünü artırmaq, yazıçılarla, rəssamlarla görüşlər keçirtmək, sual-cavab edərək onları maraqlandıran mözvuları cavablandırmaq idi. Misal olaraq qeyd etmək istərdim ki, Solmaz Amanova (uşaq yazarı), Eldar Kərimov (yazar, təlimçi), Gülzar İbrahimova (uşaq yazarı), Arif Hüseynov (xalq rəssamı), Xülya Cəfərova (gənc yazar), Aynur İsgəndərova (uşaq psixoloqu), Reyhan Yusifqızı (uşaq yazarı) və digər uşaqların hərtərəfli inkişafına təkan verən şəxsiyyətlərlə görüşlər təşkil edilir. Onlayn görüş zamanı müəyyən edilmiş mövzular, bədii kitablar haqqında söhbətlər aparılır və oxucuları maraqlandıran suallar cavablandırılır. "Sosial izolyasiya" dövründə "Uşaqların həyatında kitab və kitabxanaların rolu" adlı Bakı şəhərindən, eləcə də bölgələrimizdəki məktəblərin iştirakı ilə "zoom" proqramı vasitəsilə konfranslar həyata keçirilir.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası - "Maarif fədailərimiz - Qafur Rəşad Mirzəzadə", "Mütəllibzadə qardaşları", "Cabir Novruz – 85", "Heydər Hüseynov-110", "Ömər Faiq Nemanzadə - 145" və digər adda biblioqrafik göstəricilərini oxucularına təqdim edir. Elektron məlumat bazasında "Xanımana Əlibəyli – 100 ", "Abdulla Şaiq", "Tofiq Mahmud" və.s elektron məlumat bazaları yaradılıb. Pandemiya dövri ilə əlaqədar olaraq, koronavirusdan qorunmaq, sağlamlığımızın qorunması üsulları barəsində maarifləndirici məlumatlarda, həmçinin xəbər bölməsində yerləşdirilmişdir.